

# Canavarın intiqamı

(hekayə)

Qəşəm İsabəyli

**1.**

Qara qoçumuz dar axşamçağı örüşdən qayıtmayanda hərə bir söz dedi.

-Özünüzü dağa-daşa salmayın, - babam əsəbiləşdi. - Qara qoçu canavar yeyib! - Sonra da şam eləmədən yıxılıb yatdı. Səhər gözlərimi açanda kişini yerində görmədim. Bir də gün günortadan əyiləndə qayıdıb gəldi - üzü gülürdü:

-Həəə... Şəm-Şəm, gör nə gətirmişəm sənə?! - Sağ əlindəki torbanı ağzı üstə çe-virdi - bir cüt yekəbaş küçük düşdü içindən.

-Ay nənə! - Çığırdım.

Arvad eşiyə çıxdı:

-Bı, Baban gəlib ki! - Birdən küçükləri gördü. - Aaa... a kişi, canavar balalarını niyə gətirmisən həyətə?!

-Ca-na-ar?! - Qaçıb girdim nənəmin arxasına. - Hardan bildin, ay nənə?

-Necə hardan, atam - Çərkəz baban o qədər qurd-quş göstərib bizə. İt küçüyünün bu yekəlikdə başı olmaz!

-Ay qız, bir qab süd gətir.

Nənəm hirslənmişdi:

- Hardan gətirmisən bunları?

-"Gətirmisən" ey?! Mənim hünərimi azaltmağına bax. Elə bil canavar balası çölə tökülüb, hər yoldan keçən də bir-ikisini vurur qoltuğuna.

-Anaları Qara qoçu yeyib, balaları da, inşallah, qoyunlarının axırına çıxar!

-Ağzını xeyirliyə aç.

-A kişi, apar bunları qoy yuvasına!

Babam qurd balalarını aparıb atdı dama:

- Ay Şəm, deyirəm, gərək bunları özümüzə öyrədək.

-Ay Baba, bunlar vəhşidi axı!

Nənəm bir qab süd gətirib, hirslə yerə qoyub, çıxıb getdi.

-Bax, indi üç dəfə fit çalacam, - Babam dedi, - sonra da südü qoyacam qabaqlarına. Gündə üç dəfə fit, üç dəfə də yemək. Yavaş-yavaş biləcəklər ki, fit səsi gəlirsə, dalıyca da yemək gələcək. - Babam üç dəfə fit çalıb, sonra da südü qoydu küçüklərin qabağına. Qurd balaları yavaş-yavaş yaxınlaşıb, burunlarını dirədilər qaba - iyləyib, horta-hort saldılar. Dodaqlarını yalayıb, damın küncünə çəkildilər. Babam hərəsinin ağzına bir ağızlıq keçirtdi. - Gecəniz xeyrə qalsın!

**2.**

Şam eləyib, yerimizə girəndə Xəlsə bağı tərəfdən - Kürün başından canavar ulartısı qalxdı. İtlər qarışdı bir-birinə. Babam gülümsədi:

-Özüdür ki, var, balalarının dalıyca gəlib.

-Gəlib girməz ki, qapımıza?! - Qorxa-qorxa soruşdum.

-O bicdirsə Baban ondan da bicdi, balalarının ağzını elə bağlamamışam, səsləri çıxa.

-Ay Baba, yazıqdılar, burax getsin!

-Bəs qara qoç yazıq deyildi, ay qırışmal?!

Düz bir ay gecə sabahacan canavarın ulartısı kəsilmədi. Küçüklər də analarının səsini eşidən kimi özlərini ora-bura çırpırdı.

Gülərin birində Babam rayona getmişdi, evə gec qayıtdı. Bərk yorulduğundan çay süfrəsi arxasında başladı mürgüləməyə. Gətirib dirsəyinin altına balınc qoydum - otağı xorultu basdı...

**3.**

Səhər tezdən, Nənəmin qışqırığına oyandım:

-Ay kişi, ay kişi!

Babam durub oturdu yerin içində:

-Nə olub, ay qız, qoymazsan yataq?!

-Bura gəl.

-Nə olub?!

-Gəl, bilərsən.

Babam ayağa durdu. Mən də paltarımı geyib, dalıyca çıxdım. Bir də gördüm kişi çömbəlib oturub qoyun ağlının içində - yeddi qoç da leş-leşə uzanıb yanında.

-Uy, da-ad!.. Bunlara nə olub, ay nənə?!

-Babandan soruş! - Nənəm hirslə cavab verdi.

-Sən Allah?!

-Canavar boğub.

-Nə canavar?

-Yekəbaşların anası. Demə, dünən axşam ağızlıqlarını taxmayıbmış Baban. Anaları ulayanda, yəqin ki, bunlar da burdan zingildəyib. O da səsə gəlib girib həyətə, divarın altından lağım atıb...

-Lağım nədi?

-Yeraltı yol. Küçükləri çıxarıb. Qoyunları da görən kimi sıçrayıb düşüb ağılın içinə. Qoyun da keçi deyil, bağırıb-çığıra, sakitcə ölümünü gözləyib. Bu namərd səkkizini də boğub. Birini atıb dalına, balalarını da götürüb gedib...

**4.**

Babamın rəngi qapqara qaralmışdı. Səhər yeməyini yemədən tüfəngini çiyninə salıb, həyətdən çıxdı. Bir də axşama yaxın qayıtdı.

-Ay Baba, cavanlaşmısan!

-Bala, sən adam tanıyansan, maşallah!

Bayaq Hacı babanın oğlu Fərahim at arabasında girdi həyətə:

-Şəm-Şəm, gör nə gətirmişəm sənə!

-Nə gətirmisən?

-Bir sürü canavar.

-Yox, mən canavardan qorxuram! - Babamın böyrünə verdim özümü.

-Fərahim, götür at dama, - Babam dedi. - Gülhəsənə de, sabah gəlib aparsın məni rayona.

-Ay Baba, bunları necə tutdun?

-Bilirdim ki, canavar burdan balalarını çıxarıb köhnə yuvasına aparmayacaq. Qəhrəmanbəyli bağına girən kimi başladım fitləyə-fitləyə gəzməyə. O qədər gəzdim, o qədər fit çaldım, axırda ayaqlarım yoruldu, dodaqlarım şişdi. Dedim, yo-ox, işi yarıda qoysam, elə birinci arvadım mənə lağ eləyəcək. Barmağımı cütləyib qoydum ağzıma - elə fit çaldım, səsi düşdü meşəyə, özüm də diksindim. Yüz addım getməmişdim, gördüm xışıltı gəlir. Dayandım. Birdən böyürtkən kolunun altından iki cüt göz sancıldı üzümə. Baxdım ki...

-"Xoş gördük, köhnə dostlar, bəlkə ət verim sizə?" dedim. Sonra da üç dəfə fit çaldım. O dəqiqə yeridilər üstümə. Torbadan çıxarıb hərəsinin qabağına bir sümük atdım. Xarta-xart əzişdirməyə başlayanda itələyib saldım kisəyə. Bir mırıldamaq mırıldadılar, bildim, harda olsa anaları eşidib gələcək. Tez tələ qurub, üstünə bir parça ət qoydum. Özüm də çıxıb oturdum ağacın başında. Yarım saat keçmədi, ana canavar güllə kimi böyürdən çıxdı. Kisəni görüb dik dayandı. Burnunu yuxarı tutanda bildim, ətin iyini alıb. Tələyə sarı yeridi - qabaq əliylə ət tikəsini özünə tərəf çəkəndə tələ şaqq elədi. Tüfəng də hazır idi, tez çaxmağı çəkdim - züüü... züüü... bir cüt güllə meşəni yerindən oynatdı. Heç on dəqiqə keçmədi Fərahim canavardan da bərk gəldi.

-Əmi, gülləni havaya niyə atdın? Tüfəngi ver, nallayım alnının ortasından.

-Səndən əskik oğlanam?!

-Bir sürü qoyununu öldürüb, hələ buna yazığın da gəlir?!

-Hökumət canavarı vurmağı qadağan eləyib!

Əmi-bala köməkləşib ana canavarın başına torba keçirtdik, ayağını tələdən açıb, iplə sarıdıq. Sonra da götürüb yıxdıq arabaya. Balalarını da qoyduq yanına.

**5.**

O gecə ana canavarla balaları damda qaldı. Hərdən bir ağız ulayırdı. O dəqiqə kəndin itləri qarışırdı bir-birinə. Səhər açılan kimi Babam canavarla balalarını götürüb apardı rayona - zooparka. Günortaya yaxın bir maşın qoyunla qayıtdı.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS
Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N:
38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100